Azərbaycan ordusu.- 2020.- 5 noyabr. S. 1-2.

*Vətən müharibəsindən reportaj*

# “Biz düşməni torpaqlarımızdan sona qədər qovacağıq”



Vətən müharibəsi hamımızı əsgərləşdirib. Hərbi xidmətdə olanlar da əsgərdi, arxa cəbhədə vəzifə borclarını yerinə yetirənlər də. Döyüşdən uzaqda olanlar da ruhən döyüşənlərin sırasındadı; döyüşənlərimiz döyüş-döyüş qələbələr qazanır, düşmənin dayaq məntəqələri, mövqeləri, sığınacaqları dağıdılır, döyüş texnikaları, artilleriya qurğuları, uçuş aparatları, canlı qüvvəsi məhv edilir. Düşmənin gücü tükənməkdədi. Düşmən daha müqavimət göstərməyə çətinlik çəkir...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa hər müraciəti ictimaiyyətin qələbəyə inamını, döyüşənlərin döyüş əzmini, qələbə ruhunu kükrədir. Suqovuşanın, Hadrutun, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərinin, neçə-neçə strateji yüksəkliyin, onlarla kəndin ermənisizləşdirilməsi bu kükrəyişi xalqın qələbə ruhuna o qədər böyük könül xoşluğuyla hopdurur ki!

Döyüş ara verəndə döyüşənlərlə söhbətləşməyə imkan yaranır. Etiraf edirik ki, söhbətləşməyə nə qədər maraq göstərsək də döyüşün bir sevgi qədər də uzanmasını arzulayırıq.

Gizir Rəşad Əlyarov bir az əvvəlki döyüşdən danışır: “Artilleriyaçılarımız düşmənin mövqelərini darmadağın etdi. Düşmənin öləni öldü, qalanı da yəqin ki, qaçdı. Azərbaycan əsgərinin hər döyüşündən sonra belə olur. Yəni düşmənin gücü qalmayıb. Döyüşlərinin çarəsiz döyüşlər olduğunu dərk edə-edə döyüşmələri onların əsgər və zabitlərinin ölümü deməkdi”.

**(Ardı 3-cü səhifədə)**

# "Biz düşməni torpaqlarımızdan sona qədər qovacağıq"



(Əvvəli 1-ci səhifədə)

Gizirin düşüncəsini bir həqiqətin ifadəsi kimi dinləyirik; Azərbaycan Ordusu düşmənin pərənini pozub, düşmənin gücünü tükəndirib, düşməni məğlub edib, düşmən bunu yaxın günlərdə etiraf edəcək. Bu qənaəti ictimaiyyətin də yaşadığına əminik. Əks-hücum əməliyyatından bir neçə gün əvvəl ön xətdəydik. Səngərdə əsgərlərimizlə Vətəndən, torpaqdan, Ali Baş Komandanın verəcəyi döyüş əmrindən, başlanacaq döyüşlərdən danışmışdıq. Onda əsgər Valeh Qurbanov əsgər yoldaşlarına baxıb demişdi: "Hər birimiz o günü səbirsizliklə gözləyirik. Hərbi xidmətə gələndə ata-anamıza, bizi yola salan əzizlərimizə, müəllimlərimizə söz vermişik ki, qalib əsgər kimi tərxis olunacağıq. O vəfa sözünü yerinə yetirəcəyimiz günün narahatlığını yaşayırdıq. Vətən müharibəsi başladı. Döyüşürük. Torpaqlarımızı döyüş-döyüş azad edirik. Qələbə ovqatı bizim döyüş əzmimizi, qələbə ruhumuzu daha da yüksəldir. Hər döyüş bizi Böyük Qələbəyə yaxınlaşdırır".

Əsgər Emin Əzimzadə deyir ki, tale məni məğmun etmədi, mən də döyüşənlərin sırasındayam. Hər birimiz döyüş əmrini böyük məsuliyyətlə, Vətən müharibəsinin ruhu ilə yerinə yetiririk. Ermənilərdən azad edilmiş ərazilərimizdə bayraqların dalğalanması bizi Cıdır düzünə, Şuşaya səsləyir. Bu, Vətənin çağırışıdı...

Bir qədər uzaqlarda mərmi səsləri eşidilir. Bilirik ki, bu, bizim əsgərlərimizin atdığı mərmilərin səsidi. Bu səslər ürəyimizi dağa döndərir. Bu yaxınlarda bir əsgərin dediyi fikirlər düşür yadımıza: öz əlimizlə öz torpaqlarımızı yaralasaq da bu yaralanmadan qürur da duyuruq. Bu yaralanma bizi son döyüşə yaxınlaşdırır. Son döyüş Azərbaycan əsgərinin qalibiyyət döyüşü olacaq. Azərbaycan Ordusunun son döyüşü işğalı sonlandıracaq, torpaqlarımız işğaldan tamamilə azad ediləcək...

Payızdı...

Bir qədər yorğun yel əsir. Arzulamadığımız yeldi. Bu qəfil yeli döyüşçülər də arzulamır.

Bir qədər aralıda söhbətləşən əsgərlərə sarı baxırıq. Nə danışdıqlarını güman edirik; döyüşdən danışıblar, qələbədən danışıblar, əvvəlki döyüşlərdə şəhid olanlardan danışıblar. Növbəti döyüşlərdən danışırlar, növbəti qələbələrdən danışırlar. Gümanımızı bildiririk. Gizir Rəşad Əlyarovun baxışlarını incə bir təbəssüm bürüyür. Bu təbəssüm ehtiramdı, sevgidi, inamdı, güvəncdi.

- Haqlısınız. Vətən müharibəsi əsgərlərimizi daha da mətinləşdirib. Mətinləşmiş əsgərlərimiz hər döyüşü müharibənin son döyüşü bilir, belə döyüşür, hər qələbəyə Böyük Qələbənin bir parçası deyir. İki gün əvvəl əsgər Emin Əzimzadə döyüşçülərə gözəl bir mətləb deyib: "Qələbədən sonra azad etdiyimiz kəndlərin tikintisində də işləyərik". Onda əsgərlərimizə bunun böyük vətəndaşlıq olacağını demişdim. Onu da demişdim ki, sənin niyyətin Azərbaycanımızın müharibədən sonrakı inkişafının təmin edilməsində vasitə olacaq.

Gizirin dedikləri bizə "Dədə Qorqud" bədii filmində Qaraca Çobanın dediklərini xatırladır: "Torpağı qorumadınsa, əkib-becərməyə dəyməz, torpağı əkib-becərmədinsə, qorumağa dəyməz". Bu fikirlərə taraz fikir deyirik: "İşğaldan azad edilən torpaqlarımızı siz abadlaşdıracaqsınız, sizdən sonra hərbi xidmətə çağırılanlar qoruyacaq".

- Mən xidmətimi həmin ərazilərdə davam etdirməkdə qərarlıyam. Xidmət edə-edə abadlaşdıracağıq. Hər birinə Cocuq Mərcanlının görkəmi veriləcək. Dünya görəcək ki, Azərbaycan əsgərinin azad etdiyi torpaqları Azərbaycan gəncləri böyük sevgilərlə, xalqımızın adına layiq səviyyədə abadlaşdırır.

Gizir Rafiq Əliyev xidmət yoldaşlarının fikirləri ilə səsləşən, müəyyən mənada onları tamamlayan fikir deyir: "Əks-hücum əməliyyatının əmrinə yüksək qələbə ruhu ilə başladıq. Bu döyüşləri ürəyimizin hökmü bildik. Böyük coşqu ilə, həm hərbçi borcumuz kimi, həm də mənəvi borcumuz olaraq döyüşməyə başladıq. Qələbə üçün döyüşürdük, Vətən üçün döyüşürdük, Azərbaycanımız üçün döyüşürdük. Bu döyüşləri haqq döyüşümüz bilib döyüşürdük, zəfər döyüşləri kimi tarixlərə köçürmək üçün döyüşürdük. Belə döyüşdük. Neçə qəsəbə, neçə şəhər, neçə-neçə kənd azad edildi. Azərbaycan əsgərinin Vətən sevgisi düşmənin işğal niyyətini darmadağın etməkdədir".

Hamımıza könül xoşluğu verən bu gözəl kəlmələri Azərbaycan əsgərinin sabahkı döyüşlərinə aparacaq uğurlama bilirik. Hərbçilər özlərinə Vətən naminə qələbələr arzulayır. Bu arzular ictimaiyyətin də arzusudu. Bu arzu Azərbaycanla bağlı olsa da bəşəri arzudu; bu niyyət dünyada bir terror ocağının söndürülməsi niyyətidi.

Onu da öyrənirəm ki, gizir Əhməd İsmayılov Tərtərdə doğulub boya başa çatıb. Uşaq yaşlarından güllə, mərmi səsi eşidib, yəni müharibə görüb. Böyüdükcə ermənilərin törətdiyi vəhşiliklər haqqında böyüklərindən, müəllimlərindən eşidib, ermənilərin erməniliyini o da dərk edib. Şəhidləri də görüb. Onların qisasını almaq üçün tez böyüməyi arzulayanlardan biri də Əhməd olub. İdmanla məşğul olmağa başlayıb. İdmanın kikboksinq növünə maraq göstərib. Dəfələrlə Azərbaycan çempionu olub, beynəlxalq turnirlərdə qalib gəlib. İdman ustası adına layiq görülüb. 2004-2016-cı illərdə Qarabağ regionunun baş məşqçisi olub. Qazandığı qələbələrdə ucaltdığı bayrağı döyüşdə də ucaltmaq, işğaldan azad edəcəkləri torpaqlarda da dalğalandırmağı mənəvi borc bilib. İndi gizirdi. İndi döyüşlərdədi. İndi qələbələr qazananların sırasındadı...

Döyüşçülərlə döyüşsonrası, döyüşqabağı söhbət bizə bir həqiqəti daha böyük çılğınlıqla yaşadır: Vətən müharibəsi Böyük Qələbə ilə başa çatacaq! İctimaiyyət həmin günün intizarındadı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir fikri də xatırlayırıq: "... gün gələcək ... bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır". Bu fikir Vətən müharibəsində hərbçilərin yerinə yetirməli əmri ifadə etməklə bir sırada Böyük Qələbədən sonra dövlətin daxili siyasəti kimi quruculuq işlərinin mahiyyətini ifadə edir. Döyüşçülər bu qənaətlərə qələbədən sonra hər bir vətəndaşın yerinə yetirəcəyi vəzifə borcu deyir...



Bir az əvvəl qələbə qazanmış döyüşçülərlə söhbət kəlmə-kəlmə düşüncələrimə hopur...

Gizir Rəşad Tarvediyev bu düşüncələrin davamı kimi deyir: "Sentyabrın 27-dən, əks-hücum əməliyyatı başlayandan bəri 4 şəhər, 4 qəsəbə, 200-dən artıq kənd, neçə-neçə strateji yüksəklik ermənisizləşdirilib. Bu, Azərbaycan ordusunun qazandığı qələbələrdir və bu qələbələr Şuşada tamamlanacaq. Düşmənin nizami ordusu darmadağın edilib. Düşmən indi son çarələrinə ümid olub döyüşür.

"Bu çarə də yoxa bərabər çarədir...", - deyə kiçik çavuş Paşa Abışov gizirin sözünü təsdiqləyir.



- Son əks-həmlə əməliyyatı da sübut etdi ki, hazırkı müharibə şəraitində ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyi yeganə güc məhz Azərbaycan Ordusudur. Bu bir həqiqətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyəti döyüş meydanında xalqımızın qəhrəmanlıq salnaməsini yazır. Biz yaxşı bilirik ki, Azərbaycanımızın ərazi bütövlüyünün təmin edilməsi biz hərbi qulluqçulardan asılıdır. Bu bizim haqq işimizdir. Biz heç bir ölkənin torpağını zəbt etməmişik, heç bir başqa ölkənin torpağında da gözümüz yoxdur. Ancaq imkan vermərik ki, Vətənimiz işğalda qalsın. Bu gün Azərbaycan əsgərinin sayəsində tarixi torpaqlarımız işğaldan azad olunur.

Ali Baş Komandanımızın qeyd etdiyi kimi "Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə biz yolumuzu davam edəcəyik. Atəşkəs istəyirlərsə, işğalçı dövlətə desinlər rədd olsun, çıxsın torpaqlarımızdan. Yoxsa axıra qədər gedəcəyik, axıra qədər, sona qədər gedəcəyik. Düşməni bundan sonra da qovacağıq, necə ki, qovuruq, necə ki, qaçır bizim qabağımızdan və qaçacaq. Çünki biz haqlıyıq və biz güclüyük".

Bu gün rəşadətli Azərbaycan Ordusu müharibə meydanında gücü hesabına tarixi ədaləti bərpa edir. Ali Baş Komandanımızın rəhbərliyi ilə bu sınaqdan tezliklə çıxacaq, Böyük Qələbənin tarixini yazacağıq.

Gizir əsgərlərə baxır. Yəni düşmənin son çarələrini də siz, sizin əsgər yoldaşlarınız, başqa ərazilərdə döyüşənlərimiz tükəndirəcək...

Asta-asta yel əsir. Payız yeli ağacların yarpaqlarını titrədir, ruhən döyüşənlərin sırasında olan xalqın ürəyinə yaxın düşə bilmir. Söhbətləşdiyimiz hərbçilər fikrimizi bəyənir...

Bir qədər aralıda mərmi səsləri eşidilir. Gizir Raqif Əliyev qürurla "Bizimkilərdi!", - deyir...

**Kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**